ISSN 2219-5882

# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

**Elmi-nəzəri və praktiki jurnal**

№ 1 (19)





2016

# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

**ELMİ-NƏZƏRİ VƏ PRAKTİKİ JURNAL**

**№ 1 (19)**

*"Kitabxanaşünaslıq və informasiya" jurnalı 08.10.2010-cu il tarixində Beynəlxalq ISSN Mərkəzi (Paris, Fransa) tərəfindən 2219-5882 saylı nömrə ilə ardı davam edən nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir.*

**Bakı – 2016**

# MÜNDƏRİCAT

| | | |
|---|---|---|
| QURBANOV A.İ., HÜSEYNOVA N.Z. | RUSİYADA KİTABXANAÇILIQ-İNFORMASİYA FƏALİYYƏTİ ÜÇÜN PEŞƏ STANDARTININ HAZIRLANMASI METODİKASI | 7 |
| MƏMMƏDOV M.Ə. | RESPUBLİKA ELMİ-TEXNİKİ KİTABXANASINDA METODİK TƏMİNATIN TƏŞKİLİ | 12 |
| KAZIMİ P.F. | AZƏRBAYCAN MULTİKULTURALİZMİ İNFORMASİYA MƏKANINDA | 22 |
| HƏSƏNOVA N.Ə., HƏSRƏTOVA M.H. | İNFORMASİYA KOMMUNKİSİYA TEXNOLOGİYASI – MÜASİR SOSİAL-MƏDƏNİ İNSTİTUTLARA BİLİKLƏRİN TRANSLYASİYASI MEXANİZMİDİR | 27 |
| QURBANOV A.İ., QASIMLI. H. H. | AZƏRBAYCANDA KİTABXANA-İNFORMASİYA SİSTEMİNİN FORMALAŞDIRILMASI, MÜHAFİZƏSİ VƏ TƏBLİĞİ İSTİQAMƏTİNDƏ DÖVLƏT SİYASƏTİ | 37 |
| MƏMMƏDOV E.E. | MÜTALİƏ PSİXOLOGİYASI | 42 |
| İSMAYILOV Z.İ. | "TÜRK XALQLARININ KİTAB ABİDƏLƏRİ" ELEKTRON KİTABXANASI PREZİDENT KİTABXANASININ TÜRK XALQLARI ƏDƏBİ İRSİNİN ÖYRƏNİLMƏSİNƏ DƏYƏRLİ TÖHFƏDİR | 48 |
| ƏLİZADƏ H.Ə. | KİTABXANA ETNOMƏDƏNİYYƏTİN İNKİŞAFINI TƏNZİMLƏYƏN PROSES KİMİ | 59 |
| MURADOV P.F. | MÜASİR DÖVRDƏ NEFT SƏNAYESİ İŞÇİLƏRİNƏ KİTABXANA- İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ | 64 |
| KƏRİMOV E. Ş. | MÜASİR ŞƏRAİTDƏ ALİ MƏKTƏB KİTABXANALARINDA İNFORMASİYA XİDMƏTİ PROBLEMLƏRİ (Azərbaycan Dillər Universiteti Kitabxanasının iş təcrübəsi əsasında) | 71 |
| MƏHƏMMƏDLİ D.H. | RESPUBLİKA ƏHƏMİYYƏTLİ ELMİ SAHƏVİ KİTABXANALARIN HÜQUQİ STATUSU | 79 |
| HÜSEYNLİ G.M. | KİTABXANALARDA ELEKTRON XİDMƏT NÖVLƏRİ, ONLARIN YARANMASI VƏ KİTABXANALARDA TƏTBİQİ | 89 |
| MƏMMƏDOVA S. | GƏNCLƏR KİTABXANASININ İNFORMASİYALAŞDIRILMASI | 95 |
| ABDULLAYEVA K.Z. | AZƏRBAYCAN DÖVLƏT PEDOQOJİ UNİVERSİTETİNİN KİTABXANASINDA OXUCULARA KİTABXANA-İNFORMASİYA XİDMƏTİ (1991-2016-cı illər) | 100 |
| | **YUBİLEY** | |
| SADIXOVA S.A. | AZƏRBAYCAN MİLLİ KİTABXANAŞÜNASLIĞININ KLASSİKİ (Professor Abuzər Xələfovun 85 illik yubileyi münasibətilə ) | 106 |

# MÜTALİƏ PSİXOLOGİYASI

**MƏMMƏDOV E.E.**
***BDU, Kitabxanaşünaslıq kafedrası, müəllim***
**eldaniz@hotmail.com**

*Bu məqalədə mütaliə, insanların şəxsiyyət kimi formalaşmasında onun rolu, bu haqda elmi-nəzəri və ədəbi fikirlər, həmçinin mütaliənin sosiologiyası, pedaqogikası və psixologiyası məsələlərindən bəhs olunur.*

***Açar sözlər:*** *Bibliopsixologiya, kitabxana xidməti, mütaliə, mütaliə pedaqogikası, mütaliə psixologiyası, mütaliə sosiologiyası.*

Məlumdur ki, mütaliə şəxsiyyətin öz mənəvi tələbatına müvafiq psixoloji fəaliyyətidir. O, elmi və bədii sözlə mənəviyyata təsir göstərmək, mənəviyyat sahibini real, məqsədyönlü və xeyirxah fəaliyyətə sövq etmək, əxlaqi keyfiyyətlər aşılamaqla bütövlükdə cəmiyyətin, eyni zamanda hər bir fərdin ayrı-ayrılıqda həyatında müstəsna əhəmiyyətə malikdir.

Bildiyiniz kimi, cəmiyyətdə insanı mütaliəyə cəlb edən səbəblər haqqında kifayət qədər müxtəlif fikirlər söylənilmiş, tədqiqatlar aparılmışdır. Lakin bunu ilk dəfə müstəqil bilik sahəsi kimi dünya elmi müstəvisinə çıxaran, klassik rus kitabxanaşünaslığında kitabxanaçılığın fəlsəfi problemlərinə dair böyük və dərin nəzəri irs qoymuş şəxsiyyətlərdən biri, görkəmli rus alimi Nikolay Aleksandroviç Rubakin (1862-1946) olmuşdur. O, bütün mənalı həyatını kitab, oxucu və mütaliə problemlərinə həsr etmiş və bunun nəticəsidir ki, «Bibliopsixologiya»nın (yunan. «biblion» - kitab və «psyche» - ruh + «logos» - təlim) əsasını qoymuşdur. Bu problem N.A.Rubakinin yaradıcılığının qızıl xəttidir.

N.A.Rubakin birinci rus inqilabının (1905-1907) iştirakçısı olması səbəbi ilə 1907-ci ildə Rusiya imperiyasından İsveçrəyə mühacirət etmişdir. O, burada 22 oktyabr 1916-cı ildə Jan Jak Russo adına Cenevrə Pedaqoji İnstitutunda «Bibliopsixologiya» bölməsini açmağa müvəffəq olur. 1929-cu ildə isə İsveçrənin Lozanna şəhərində Beynəlxalq Bibliopsixologiya İnstitutunun əsasını qoyur. N.A.Rubakin 280-ə yaxın kitab və kitabçanın, 350-dən çox elmi məqalənin müəllifidir. Onun «Kitablar arasında», «Oxucu və kitab psixologiyası» əsərləri bibliopsixologiya dair geniş yayılmış elmi ədəbiyyatlardandır.

N.A.Rubakin öz əsərlərində «Bibliopsixologiya»ya iki fərqli elmi tərif vermişdir:

I. «Bibliopsixologiya kitabçılıq işini əhatə edən sosial mühit (zaman və məkan) şəraiti ilə əlaqədar inkişaf və tənəzzül prosesinin psixologiyasıdır».

II. «Bibliopsixologiya sosial psixoloji təsir haqqında elmdir».

Kütləvi oxu (mütaliə), əsasən, kitabxanalarda baş tutan böyük bir proses olduğundan, N.A.Rubakin kitabxananı «Bibliopsixologiya»nın əsas tədqiqat obyekti kimi qəbul etmişdir. Bu nöqteyi-nəzərdən istər sovet, istərsə də rus kitabxanaşünaslıq elmində «Bibliopsixologiya»ya «Kitabxana psixologiyası» elmi kimi yanaşılsa da, müəllifin öz əsərlərində bu elmə verdiyi təriflərdən də göründüyü kimi, bu, kökündən yanlış fikirdir. Məncə, bu elm sahəsinə «Mütaliə psixologiyası» kimi yanaşmaq daha doğru olardı.

Belə ki, N.A.Rubakin kitabxananı sosial-ictimai şüurun formalaşmasında böyük rol oynayan vasitə kimi qiymətləndirmişdir. O, kitabı müəyyən biliyi, elmi özündə əks etdirən kitabxananın kiçik modeli kimi təqdim edir. Beləliklə, «nə üçün kitab dedikdə kitabxana göz önünə gəlməsin?», - deyə, kitabxana işini diqqət mərkəzinə gətirmiş olur. Lakin N.A.Rubakin xüsusi olaraq qeyd edir ki, «Bibliopsixologiyanın vizual mənada xüsusi obyekti dedikdə, məhz kitab işi nəzərdə tutulur». Nəticə olaraq onun yaratmış olduğu yeni bilik sahəsi - bibliopsixologiya kitab işi və onunla bağlı məsələlərin psixologiyasını araşdıran elm kimi çıxış edir.

Hal-hazırda cəmiyyətdə kitabla ünsiyyət, çap və elektron nəşrlərin qavranılma formaları barədə müxtəlif fikirlər söylənilsə də, mütaliə nəzəriyyəsi, onun elmi-metodoloji xüsusiyyətləri elm aləmində hələ də formalaşmaqdadır. Bu da çox güman ki, mütaliənin bir çox elmlərin maraq dairəsinə daxil olmasından, həmçinin informasiya cəmiyyətində mütaliə (qiraət) prosesinə həm oxucu, həm də istifadəçi nöqteyi-nəzərdən yanaşma prinsipindən irəli gəlir. Bununla yanaşı, mütaliə nəzəriyyəsinin əsas tədqiqat istiqamətləri müəyyənləşdirilmişdir. Bunlar mütaliə sosiologiyası, mütaliə pedaqogikası və mütaliə psixologiyasıdır.

**Mütaliə sosiologiyası** - cəmiyyətdə qiraət prosesi ilə əlaqədar fəaliyyətə aid olan sosial faktları və qanunauyğunluqları öyrənən xüsusi sosioloji bilik sahəsidir. Mütaliə sosiologiyasının əsas məsələləri - sosial-iqtisadi və siyasi şəraitdə qiraət prosesinə olan ehtiyacları aşkar etmək, oxucu (istifadəçi) marağının sosial xüsusiyyətlərinin əsaslarını və mədəni hadisələr sistemində qiraətin insan varlığının daxili dünyasının formalaşmasında başlıca mövqeyini müəyyən etməkdir.

**Mütaliə pedaqogikası** - ümumi pedaqoji və sosial-mədəni problem kimi, cəmiyyətdə qiraət prosesinə olan səyləri artırmaq üçün istifadə olunan elmi ifadə, xüsusi pedaqoji bilik sahəsidir. Bu, əlavə təhsil və maarifləndirici fəaliyyət kontekstində, hər hansı bir əhəmiyyətli mövzuda mütaliə (qiraət) prosesinə dair pedaqoji metodların axtarılması və öyrənilməsidir.

Mütaliənin elmi-tədqiqat istiqamətləri mütaliə psixologiyası tərəfindən araşdırılan problemlərlə, yəni mütaliə prosesinin psixoloji məzmunu, mexanizmi, qavrayış, təfəkkür, nitq və şüur mərhələləri ilə məhdudlaşmır. Öz

təsir obyekti və əhatə dairəsinə görə mütaliə psixologiyası ilə haradasa yaxınlıq təşkil edən mütaliə pedaqogikası məhz bu vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur. Mütaliə pedaqogikası ilk növbədə mütaliənin, hissi predmetlərlə ifadə olunan emosional-tərbiyəvi, eyni zamanda təfəkkür materialları vasitəsilə idraki funksional xüsusiyyətlərini araşdırır. Bütün bunlarla bərabər, sistemli mütaliənin elmi-nəzəri, həmçinin təcrübi əsaslarının işlənib hazırlanması, onun həyata keçirilməsi yollarının müəyyənləşdirilməsi, mütaliənin daha çox keyfiyyət göstəricilərinin aşkar edilməsi problemləri də mütaliə pedaqogikasının tədqiqat obyektlərindəndir.

Elmi fənn kimi «Oxucularla iş»in («Kitabxana xidməti»nin) psixologiya elmi ilə qarşılıqlı təsiri nəticəsində «kitabxana psixologiyası» yaranmışdır. «Kitabxana xidməti»nin psixologiya ilə əlaqəsinin vacibliyi onunla izah edilir ki, oxucunu (istifadəçini) psixoloji cəhətdən ətraflı öyrənmədən, oxucu (istifadəçi) marağı, mütaliə psixologiyası və kitabın (elektron nəşrin) dərk edilməsinin psixoloji mahiyyəti haqqında biliklər əldə edilmədən oxucunun (istifadəçinin) mütaliəsini istiqamətləndirməyin nəzəri və təcrübi problemlərinin həll edilməsi qeyri-mümkündür.

**Mütaliə psixologiyası** - qiraət bacarığının formalaşması, ədəbiyyatın qavranılıb dərk edilməsi, mütaliəyə dair psixoloji proseslərin və hüquqi vəziyyətlərin rol və xüsusiyyətlərini, onların qiraət məhsullarının keyfiyyətindən və şəxsiyyətin psixoloji xüsusiyyətlərindən asılılığını öyrənən bilik sahəsidir.

Qanunauyğun haldır ki, mütaliə psixologiyası insanın psixoloji xüsusiyyətlərindən, şəxsiyyətin özünəməxsus müxtəlif xarakterik cəhətlərindən çox asılıdır. Belə ki, istənilən qiraət məhsulunun seçilməsi, onun dərk edilməsi və qiymətləndirilməsi həmin insanın (oxucunun, istifadəçinin) mütaliə tələbatından, mütaliə marağından, onun mütaliə mədəniyyətinin və zövqünün inkişaf səviyyəsindən çox asılıdır.

Göründüyü kimi, mütaliə məsələlərini tədqiq edən bilik sahələrinin - mütaliə sosiologiyası, mütaliə pedaqogikası və mütaliə psixologiyasının başlıca məqsədi qiraət məhsulunun təbliğini, yayılmasını, insanlar (oxucular, istifadəçilər) tərəfindən mənimsənilməsini, onların (oxucuların, istifadəçilərin) maraqlarına, sorğu və tələblərinin səviyyələrinə müvafiqliyini, mütaliənin forma və üsullarını tədqiq etməkdir.

Azərbaycanda mütaliə nəzəriyyəsinin əsas tədqiqat istiqamətlərinə dair məsələyə kitabxanaşünaslıq elmi nöqteyi-nəzərdən ilk yanaşmalar XX əsrin 60-cı illərindən başlayaraq professor Abuzər Xələfovun təşəbbüsü və rəhbərliyi altında Bakı Dövlət Universitetinin «Kitabxanaşünaslıq» kafedrasının müəllim heyətinin elmi əsərlərində, konfrans və mühazirə materiallarında təsadüf edilir.

Bu problemə əsərlərində daha çox toxunan Bakı Dövlət Universitetinin «Kitabxanaşünaslıq» kafedrasının dosenti, filologiya elmləri namizədi Sahib Mirzalı oğlu Rzayev (1938-2013) olmuşdur. Kitabxana işi sahəsində professional əmək fəaliyyətinə 1959-cu ildə indiki M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasından başlayan S.M.Rzayev 1961-ci ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsini, 1966-cı ildə isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmiş və 1967-ci ildən ömrünün sonunadək Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin müəllimi vəzifəsində çalışmışdır. Onun 2008-ci ildə «Bakı Universiteti» nəşriyyatında işıq üzü görmüş «Kitabxana xidməti» adlı əsərində kitabxanalarda oxuculara xidmət sistemi, onun forma və üsulları, xidmət texnologiyasının məzmunu ilə yanaşı, oxucu marağı, oxucu tipologiyası, mütaliə psixologiyası, mütaliə sosiologiyası və mütaliə pedaqogikası kimi mühüm problemlərin şərhi verilmişdir.

Bu məsələyə tarixilik prinsipi ilə yanaşaraq yaxın keçmişə nəzər salsaq, görərik ki, maarifçi Azərbaycan mütəfəkkirlərinin görkəmli nümayəndəsi sayılan Abbasqulu ağa Bakıxanovun (1794-1847) əsərlərində də bu problem qabarıq şəkildə işıqlandırılmışdır.

A.Bakıxanov bir alim kimi pedaqoji məsələlərlə də məşğul olmuş, uşaqların və gənclərin tərbiyəsi ilə əlaqədar olan iki əsər yazmışdır. Onlardan biri «Təhzibül-əxlaq», digəri isə «Kitabi-nəsihət»dir.

«Təhzibül-əxlaq» (Əxlaqın saflaşdırılması) müəllifin pedaqogika və psixologiyaya aid elmi və nəzəri məsələləri əhatə edən fəlsəfi əsəridir. Əsər fars dilində yazılmış müqəddimə, 12 fəsil və nəticədən ibarətdir. «Təhzibül-əxlaq» əsərinin əsas məqsədi gəncləri pis əməllərdən çəkindirmək, onlarda nəcib və gözəl əxlaqi normaları tərbiyələndirməkdir. Şəxsiyyətin bütövlüyü, vicdan təmizliyi, doğruluq, ədalət, mərdlik, yoxsul və məzlumlara hamilik, insanlarla yaxşı rəftar, düşkün ehtiraslardan özünü saxlamaq, dünya malına tamah salmamaq, şöhrətpərəstlikdən çəkinmək, təvazökarlıq, zəhməti sevmək, elm və maarifin bayrağını hər şeydən uca tutmaq, vətənə və xalqa məhəbbət və sairə «Təhzibül-əxlaq» əsərinin irəli sürdüyü əsas əxlaqi məsələlərdir.

«Təhzibül-əxlaq»da müqəddimədən sonra gələn «Etidala riayət», «Yaxşı işlərin fəziləti», «Can sağlığının qazanılması», «Şöhrətin bəyanı» fəsilləri əxlaq normalarının şərhinə həsr olunur. A.Bakıxanovun əxlaq nəzəriyyəsi onun insanlığa, vətənə və xalqına olan məhəbbəti, maarifçi və demokratik dünyagörüşü ilə bağlıdır. O, bu nəzəriyyəsi ilə gənclərdə elə gözəl əxlaqi sifətlər tərbiyə etmək istəyir ki, onlar müasir cəmiyyətin faydalı və xeyirxah üzvləri olsunlar, onlardan xalqa zərər toxunmasın.

«Təhzibül-əxlaq»da A.Bakıxanov nəzəriyyə ilə təcrübənin (elmlə əməlin) qarşılıqlı əlaqə və münasibətini təyin etməyə çalışır. Elmlə əməlin bir-birindən asılı olduğunu izah edərkən, elmə üstünlük verir.

A.Bakıxanovun ikinci pedaqoji əsəri «Kitabi-nəsihət» və ya «Nəsihətnamə»dir. «Kitabi-nəsihət»də 103 nəsihət vardır. Əsər müəllifin kiçik müqəddiməsi və dini nəsihətlərlə başlanır.

Dini nəsihətlərdən sonra dövlət başçısına (padşaha), ata-anaya, böyüklərə itaət və ehtiramın vacibliyi, həyat və məişət məsələləri ilə əlaqədar əxlaqi nəsihətlər verilir. Əxlaqi nəsihətlərin əksəriyyəti «Təhzibül-əxlaq»dakı əxlaqi nəzəriyyə ilə sıx bağlıdır. «Kitabi-nəsihət»in girişində müəllif əsərinin izlədiyi əsas məqsəddən danışarkən tərbiyə və təlimə dair yazılan kitabların uyğunsuzluğundan, çətin dildə yazılmasından şikayət edir.

«Kitabi-nəsihət» əsərində əsas məqsəd özündən böyüyə hörmət, ata-ananı sevmək, onların itaətindən çıxmamaq, qohum-əqrəbaya mehribanlıq, dostluqda sədaqət, işdə və haqq-hesabda düzlük, doğru danışmağa adət etməkdir. Həmçinin pis və «hərzəgu» (boşboğaz) adamlarla ünsiyyət etməmək, özünə rəva görməyən işi başqasına rəva görməmək, həyatdakı çətinliklərə və müsibətlərə dözmək, səbirli olmaq, mərdlik və qorxmazlıq, zəhməti sevmək, tənbəlliyə nifrət, elm və təhsilə həvəs və s. bu kimi əxlaqi nəsihətlər «Kitabi-nəsihət»in əsas məzmununu təşkil edir.

Beləliklə, həm bədii ədəbiyyat, həm də elmi-nəzəri faktlardan göründüyü kimi, insanların informasiya əldə etmək üsullarından biri olan mütaliə istər informasiya cəmiyyətində, istərsə də bundan əvvəlki dövrlərdə insanların qiraət etmək tərzləri və motivlərinə, eyni zamanda yaş, peşə, cins, sosial faktorlara görə təsnifləşdirilmişdir. Bu məsələni tədqiq edən bilik sahələri, əsasən, mütaliə prosesinin psixoloji mexanizmini, fərdi-psixoloji, fikri proses kimi spesifik xüsusiyyətlərini, elmi araşdırmaya daha çox ehtiyacı olan qavrayış və digər idrak proseslərinin (diqqət, hafizə, təfəkkür, təxəyyül) sistemli mütaliəni şərtləndirən amillər kimi öyrənilməsi məsələlərini əhatə edir. Həmçinin bu bilik sahələri insanı (oxucunu, istifadəçini) bütün xüsusiyyətləri ilə birgə kompleks halda tədqiq edərkən, eyni zamanda bu problemin digər tədqiqat obyektləri olan kitabı, müxtəlif ənənəvi çap və elektron nəşr məhsullarını, onların struktur komponentlərini və qavranılması tərzini, eləcə də bədii və elmi qavrayışın psixoloji aspektlərini də yaddan çıxarmır.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri // Respublika. – 2002. – 17 aprel.*

2. *Rzayev S.M. Kitabxana xidməti: Dərslik. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008, 337 s.*

3. Библиотечное обслуживание: учеб.-метод. Пособие / Т.В.Дергилева; Гос. публич. науч.-техн. б-ка Сиб. отд-ния Рос. акад. наук; Новосиб. гос. пед. ун-т. – Новосибирск: ГПНТБ СО РАН, 2010, 136 с.

4. http://orthography.academic.ru/2078/%D0%B1%D0%B8%D0%B1%D0%BB%D0%B8%D0%BE%D0%BF%D1%81%D0%B8%D1%85%D0%BE%D0%BB%D0%BE%D0%B3%D0%B8%D1%8F

5. http://psyfactor.org/lib/bibliopsy.htm

6. http://www.ifap.ru/library/book193.pdf

7. https://az.wikipedia.org/wiki/Abbasqulu_a%C4%9Fa_Bak%C4%B1xanov

## ПСИХОЛОГИЯ ЧТЕНИЯ

МАМЕДОВ Э.Э.

### *РЕЗЮМЕ*

*В этой статье говорится о чтении, о его роли в формировании человека как личност, научно-теоретические и литературные мнения об этом, а также рассказывается о вопросах чтения социологии, педагогики и психологии.*

***Ключевые слова:*** *Библиопсихология, библиотечное обслуживание, чтение, педагогика чтения, психология чтения, социология чтения.*

## READING PSYCHOLOGY

MAMMADOV E.E.

### *SUMMARY*

*In this article is spoken about the reading, about its role in the formation of man as a person, and scientific-theoretical and literary opinions about it. The article also discusses the issues of sociology, pedagogy and psychology of reading.*

***Keywords:****Bibliopsychology, library service, reading, reading pedagogy, reading psychology, reading sociology.*